**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

__________________

19.10.2022-ci il

# Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Bazar rəqabəti" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Bazar rəqabətini təşviq edən qaydaların keyfiyyəti** | | | | | |
| **1.1. Rəqabət qaydalarının keyfiyyəti** | | | | | |
| 1.1.1. | Sövdələşmə/kartel əleyhinə mübarizə | 1. Bazar subyektlərinin kartel sövdələşmələrinin özünü ilk növbədə istehlak bazarında qiymətlərin səviyyəsində və əmtəələrin təklifinin həcmində göstərdiyi nəzərə alınaraq, belə hərəkətlərin vaxtında müəyyən edilməsi məqsədilə:<br>1.1. istehlak bazarında bir sıra əmtəələrin qiymətlərinin monitorinqinin aparılması;<br>1.2. monitorinqlər zamanı bazar subyektlərinin kartel sövdələşmələri əlamətləri aşkar edildiyi təqdirdə antiinhisar qanunvericiliyinin tələblərinə uyğun tədbirlərin görülməsi. | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Cəfər Babayev, Fuad Yadigarov, Kamran Umudov |
| | | 2. Bazarda hökmran mövqeyə malik təsərrüfat subyektlərindən mütəmadi olaraq zəruri məlumatların alınması və həmin məlumatlar əsasında rəqabətin pozulması (kartel sövdələşməsi) hallarının olub-olmamasının araşdırılması | Mütəmadi | | |

<table>
<tr><td></td><td></td><td>3. Bu sahədə yüksək təcrübəyə malik xarici rəqabət orqanlarının, habelə beynəlxalq rəqabət təşkilatlarının təcrübəsinin öyrənilməsi və nəticələri üzrə Komissiyaya təkliflərin verilməsi</td><td>01.04.2023</td><td></td><td></td></tr>
<tr><td>1.1.2.</td><td>Qanunvericilikdə rəqabət əleyhinə təcrübələrin aydın şəkildə müəyyən edilib-edilməməsi</td><td rowspan="6">Müvafiq alt komponentlərə dair müddəaların da əks olunduğu Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi qəbul edildikdən sonra qeyd olunan istiqamətdə kompleks tədbirlərin görülməsi<br><br>Qeyd: Qabaqcıl xarici təcrübə (ABŞ, Almaniya, Avstriya, İtaliya, Rusiya, Türkiyə, Qazaxıstan, Latviya, Litva, Macarıstan, Çexiya) öyrənilərək müasir çağırışlara cavab verən Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi layihəsi hazırlanaraq müvafiq qurumlarla razılaşdırılmış və qəbul edilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.</td><td rowspan="6">Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi qəbul edildikdən sonra 6 ay ərzində</td><td rowspan="6">İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td rowspan="6">Cəfər Babayev, Fuad Yadigarov, Vaqif Ataşov</td></tr>
<tr><td>1.1.3.</td><td>Şirkətləri kartelləri dağıtmağa (kartel sövdələşməsindən imtinaya) həvəsləndirən güzəşt proqramlarının mövcudluğu (məsələn, prosessual zəmanətlər, məxfilik, informatorların müdafiəsi və s.)</td></tr>
<tr><td>1.1.4.</td><td>Birləşməyə nəzarətlə bağlı qaydalar</td></tr>
<tr><td>1.1.5.</td><td>Yoxlanılmasına ehtiyac olmayan əməliyyat növləri də daxil olmaqla, birləşməyə nəzarət barədə qaydaların aydınlığı və əhatə dairəsi (məsələn, bildiriş üçün müəyyən edilmiş limitdən aşağı olan və ya sadələşdirilmiş birləşməyə nəzarət prosedurları tətbiq edilən əməliyyatlar)</td></tr>
<tr><td>1.1.6.</td><td>Birləşmənin yoxlanılması üçün ödənişlərin səviyyəsi və növü</td></tr>
<tr><td>1.1.7.</td><td>Antiinhisar araşdırmalarında prosessual zəmanətlər və tərəflərə özünü müdafiə hüquqlarını həyata keçirməyə imkan verən birləşmələrin yoxlanılması prosesi</td></tr>
</table>

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.1.8. | Müvafiq orqanlara rəqabət sahəsində araşdırma aparmaq və bir sıra sanksiyaları tətbiq etmək səlahiyyətinin verilib-verilməməsi | Beynəlxalq təcrübə nəzərə alınaraq rəqabət sahəsində araşdırma aparılmasının və sanksiyalar tətbiq edilməsinin yalnız rəqabət qurumu tərəfindən həyata keçirilməsi ilə bağlı sahibkarlar arasında təbliğat və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi<br><br>**Qeyd:** Antiinhisar qanunvericiliyinin pozulması ilə əlaqədar maliyyə sanksiyaları və cərimələr (cinayət hərəkətləri istisna olmaqla) yalnız rəqabət qurumu tərəfindən tətbiq edilir. | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Cəfər Babayev, Fuad Yadigarov, Şahin Nağıyev, Xamis Seyranov, Vaqif Ataşov |
| 1.1.9. | İstehlakçı hüquqlarının müdafiəsinin aspektləri | İnzibati orqan tərəfindən qüsurlu olduğu iddia edilən malların (işlərin nəticələrinin) ekspertizasının həyata keçirilməsini təmin etmək məqsədilə “İstehlak Mallarının Ekspertiza Mərkəzində qeyri-ərzaq mallarının (işlərin nəticələrinin) ekspertizasının aparılması Qaydaları”nın və bununla əlaqədar “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Roman Qaraşov, Elnur Bağırov, İlqar Həsənov, Vaqif Ataşov |
| **1.2. Dövlət satınalma müqavilələri üzrə təkliflər vermək üçün qaydaların keyfiyyəti** | | | | | |
| 1.2.1. | Dövlət satınalmaları üzrə qanunvericilikdə ədalətli qiymətləndirmə prosesinin, şirkətlər üçün hüquqi müəyyənliyin nəzərdə tutulub-tutulmaması, rəqabət, şəffaflıq, dürüstlük və qiymət-keyfiyyət uyğunluğunu təşviq edən seçilmiş qabaqcıl təcrübələrin qanunvericiliyə daxil edilib-edilməməsi | 1. Dövlət satınalmaları üzrə yeni qanun layihəsinin razılaşdırılması prosesinin başa çatdırılması və yekun layihənin müvafiq qaydada aidiyyəti üzrə təqdim edilməsi | 01.12.2022 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti), digər aidiyyəti qurumlar | Əhməd Həsənov, Tural İsmayılov, Yusif Dadaşzadə |
| | | 2. Dövlət satınalmaları üzrə yeni qanunun tətbiqi ilə bağlı çatışmazlıqların müəyyən olunması, bazar iştirakçılarının və satınalan təşkilat nümayəndələrinin rəyinin öyrənilməsi üçün təhlillərin aparılması və sorğunun keçirilməsi | Qanun qəbul edildikdən sonra 6 ay ərzində | | |
| | | 3. Aşkar edilmiş problemlər əsasında qanunvericilikdə dəyişikliklərə dair layihənin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | Qanun qəbul edildikdən sonra 9 ay ərzində | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.2.2. | Bazara giriş və rəqabətə fayda verən sahələrə fokuslanaraq, dövlət satınalmalarında ekoloji/davamlılıq mülahizələrini özündə birləşdirən qabaqcıl normativ təcrübələr | 1. Davam etdirilə bilən və yaşıl satınalma siyasəti barədə normativ hüquqi sənəd layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti), Ədliyyə Nazirliyi | Əhməd Həsənov, Tural İsmayılov, Yusif Dadaşzadə |
| | | 2. Yaşıl satınalma siyasəti ilə bağlı müvafiq sənəd təsdiq edildikdən sonra "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | Müvafiq normativ hüquqi sənəd qəbul edildikdən sonra 6 ay ərzində | | |
| **2. Bazar rəqabətini təşviq edən dövlət xidmətlərinin adekvatlığı** | | | | | |
| **2.1. İnstitusional struktur və rəqabət qaydalarının icrasının keyfiyyəti** | | | | | |
| 2.1.1. | Rəqabət qurumunun qərarlarından şikayət etmək imkanı (məsələn, şirkətlərin qərardan ixtisaslaşmış müstəqil orqana şikayət etmək imkanının olub-olmaması və ya qeyri-məhkəmə orqanlarının rəqabət qurumunun qərarlarını ləğv etmək səlahiyyətinin olub-olmaması) | Rəqabət qanunvericiliyinin pozulması ilə bağlı rəqabət qurumunun qərar və göstərişlərindən inzibati və (və ya) məhkəmə qaydasında şikayət vermə mexanizmi barədə bazar subyektləri arasında təbliğat və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Cəfər Babayev, Fuad Yadigarov, Şahin Nağıyev, Xamis Seyranov, Vaqif Ataşov |
| 2.1.2. | Rəqabət qurumunun resursları (məsələn, büdcəsi və işçi heyəti) | Rəqabət qurumunun resursları (büdcəsi, işçi heyəti və s.) barədə ətraflı məlumatların (həm Azərbaycan, həm də ingilis dillərində) qurumun internet səhifəsində yerləşdirilməsi və həmin resursların artırılması ilə bağlı əsaslandırılmış təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 31.12.2022 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Cəfər Babayev, Yusif Dadaşzadə, Aytən Hüseynova, Vaqif Ataşov |
| 2.1.3. | Digər hökumət orqanları ilə əməkdaşlıq (məsələn, tənzimləyici orqanlar) | Rəqabət sahəsində digər dövlət orqanları ilə ikitərəfli görüşlərin keçirilməsi və birgə tədbirlərin təşkili, habelə onların təcrübələrindən bəhrələnmək üçün rəqabət qurumu tərəfindən həyata keçirilən təhlil, araşdırma və antiinhisar qanunvericiliyin pozulması üzrə işlərə baxılmasına həmin qurumların cəlb edilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Orxan Məmmədov |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.1.4. | Transsərhəd rəqabət orqanları ilə əməkdaşlıq | 1. Rəqabət siyasəti sahəsində müvafiq dövlətlərlə (Rusiya, Türkiyə, Gürcüstan, Qırğızıstan) əməkdaşlıq haqqında Anlaşma Memorandumlarının imzalanması və onların icrasının təmin edilməsi<br>2. Rəqabət siyasəti sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı-İƏİT/OECD, Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı-UNCTAD) əməkdaşlığın genişləndirilməsi | 31.12.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Orxan Məmmədov |
| 2.1.5. | Rəqabət qurumu tərəfindən qərarların və həmin qərarlara dair iqtisadi-hüquqi əsaslandırmanın dərc edilib-edilməməsi | Rəqabət qurumu tərəfindən qəbul edilmiş qərarlar barədə 2.1.5-ci alt komponentin tələblərinə uyğun məlumatların (kommersiya sirri hesab edilən məlumatlar qorunmaqla) qurumun internet səhifəsində və KİV-də açıqlanması | 31.12.2022 (2022-ci ildə qəbul edilmiş qərarlar barədə məlumatlar)<br><br>Qərarlar qəbul edildikdən sonra 15 gün müddətində | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Gülnar Hüseyn |
| 2.1.6. | Antiinhisar və birləşməyə nəzarət alətləri haqqında bələdçi/təbliğedici hesabatların hazırlanması və dərc edilməsi | Bazarların müəyyən edilməsi, birləşmə və qovuşma prosesinin idarə edilməsi, rəqabət mühitinin ölçülməsi, inhisarçılıq vəziyyətinin müəyyən edilməsi və digər aidiyyəti qayda və proseslərə dair materialların, vəsaitlərin hazırlanması və ictimaiyyətə açıqlanması | Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi qəbul edildikdən sonra 6 ay ərzində | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Cəfər Babayev, Fuad Yadigarov, Kamran Umudov, Gülnar Hüseyn |
| 2.1.7. | Sanksiyaların icra edilib-edilməməsi | Rəqabət qurumu tərəfindən qəbul edilmiş qərarların icrasına nəzarətin gücləndirilməsi, habelə antiinhisar qanunvericiliyinin pozulması ilə əlaqədar tətbiq edilmiş cərimənin (maliyyə sanksiyasının) vaxtında ödənilmədiyi və ya qismən ödənildiyi halda, cərimənin (maliyyə sanksiyasının) və ya onun ödənilməmiş hissəsinin məcburi qaydada ödənilməsi üçün tələbin icraya yönəldilməsi haqqında təxirəsalınmadan qərar qəbul edilməsi və həmin qərarların icra məmurlarına göndərilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Cəfər Babayev, Vaqif Ataşov, Fuad Yadigarov, Xamis Seyranov, Şahin Nağıyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.2. Elektron satınalma platformalarında şəffaflıq və əməliyyat xüsusiyyətləri** | | | | | |
| 2.2.1. | Elektron satınalma sisteminin şəffaflıq xüsusiyyətləri | 1. Dövlət satınalmalarının vahid internet portalının təkmilləşdirilməsi üzrə təkliflərin və icra qrafikinin hazırlanaraq Komissiyaya təqdim olunması | 31.12.2022 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) (“Smartapp” MMC cəlb edilməklə) | Əhməd Həsənov, Cavid Nəzərov |
| | | 2. Razılaşdırılmış təkliflər və icra qrafiki üzrə işlərin icrasının təmin edilməsi və görülmüş işlərə dair hesabatın Komissiyaya təqdim edilməsi | Qrafikə uyğun hər rüb | | |
| 2.2.2. | Elektron satınalma sisteminin əməliyyat xüsusiyyətləri | 3. Dövlət satınalmaları üzrə yeni qanun layihəsi ilə bağlı portalda ediləcək dəyişikliklərin siyahısının və siyahı üzrə işlərin icra qrafikinin hazırlanaraq Komissiyaya təqdim olunması | Qanun qəbul edildikdən sonra 15 gün ərzində | | |
| | | 4. Dövlət satınalmaları üzrə yeni qanunun tətbiqi ilə əlaqədar portalda müvafiq dəyişikliklərin həyata keçirilməsi | Qanun qəbul edildikdən sonra 1 ay ərzində | | |
| **3. Bazar rəqabətini təşviq edən əsas xidmətlərin həyata keçirilməsində səmərəlilik** | | | | | |
| **3.1. Sadə birləşmə prosesinin (“simplified merger review”) effektiv həyata keçirilməsi** | | | | | |
| 3.1.1. | İnformasiya sorğusu prosesinin biznes üçün ağır olub-olmaması | Birləşmələr (qovuşmalar) əqdinə antiinhisar qanunvericiliyinin tələbinə uyğun razılıqla bağlı vəsatət vermiş tərəflərdən müvafiq qaydada təsdiq olunmuş təsis sənədləri, təsərrüfat subyektinin yaradılması, yenidən təşkili və ya ləğv edilməsi ilə bağlı müvafiq müqavilə və (və ya) qərar, əsas məhsulun (xidmətlərin) müvafiq əmtəə bazarında satışının həcminə dair və aktivlər barədə məlumatların istənilməsi prosesinin elektronlaşdırılması | 31.12.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Cəfər Babayev, Fuad Yadigarov, Adil Məhərrəmov |
| 3.1.2. | Birləşmə barədə bildirişin təqdim edilməsi, ona baxılması və qərar qəbul edilməsi üçün tələb olunan vaxt və bu sahədə şirkətlərin xərcləri | Birləşmə barədə bildirişin təqdim edilməsi, ona baxılması və qərar qəbul edilməsi proseslərinin elektronlaşdırılması | 31.12.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Cəfər Babayev, Fuad Yadigarov, Adil Məhərrəmov |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.1.3. | Rəqabət qurumları tərəfindən faktiki olaraq sadələşdirilmiş prosedurdan müvafiq qaydada istifadə edilib-edilməməsi | 1. Birləşmələr (qovuşmalar) əqdi üçün antiinhisar qanunvericiliyinin tələbinə uyğun olaraq müvafiq razılıq verilməsi prosesinin avtomatlaşdırılması<br>2. Birləşmələrlə əlaqədar müraciətlərin qəbulunun elektronlaşdırılması məqsədilə e-rəqabət portalının yaradılması | 31.12.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Cəfər Babayev, Fuad Yadigarov, Vaqif Ataşov |
| **3.2. Dövlət satınalma müqaviləsini bağlamaq üçün vaxt** | | | | | |
| 3.2.1. | Tenderin elan edilməsi və satınalma barədə qərarın bildirilməsi arasındakı vaxtın qiymətləndirilməsi | Dövlət satınalmaları üzrə yeni qanunun tətbiqindən sonrakı 6 ay ərzində müvafiq müddətlərin statistikası və gecikmələrə səbəb olan halların təhlili barədə məlumatların, eləcə də gecikmələrin aradan qaldırılmasına dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | Müəyyən olunmuş dövrdən sonrakı 1 ay ərzində | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Əhməd Həsənov, Tural İsmayılov, Yusif Dadaşzadə |
| 3.2.2. | Şirkətlərin satınalma prosesində iştirak etmək qərarı verməsindən əvvəl təkliflərin hazırlanması xərclərinin qiymətləndirilməsi | Dövlət satınalmaları üzrə yeni qanunun tətbiqindən sonrakı 6 ay ərzində yığılmış istifadə və iştirak haqları barədə statistik məlumatların hazırlanması və Komissiyaya təqdim edilməsi | Müəyyən olunmuş dövrdən sonrakı 1 ay ərzində | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Əhməd Həsənov |
| **3.3. Müqavilə üzrə ödəniş etmək vaxtı** | | | | | |
| 3.3.1. | Dövlətin podratçılara müqavilə üzrə ödənişləri həyata keçirdiyi müddətin qiymətləndirilməsi | 1. Podratçıların (malgöndərənlərin) ödəniş üçün satınalan təşkilatlara müraciətləri (müraciət tarixi və ödəniş məbləği) və ödəniş tarixləri barədə 2022-ci il üzrə statistik məlumatlar əsasında gecikməyə səbəb olan halların təhlilinə dair hesabatın müvafiq təkliflərlə birlikdə hazırlanaraq Komissiyaya təqdim edilməsi | 31.03.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dövlət Vergi Xidməti), Maliyyə Nazirliyi (Dövlət Xəzinədarlığı Agentliyi) (“Smartapp” MMC cəlb edilməklə) | Əhməd Həsənov, Cavid Nəzərov |
| | | 2. Müvafiq hesab-fakturaların dövlət satınalmalarının vahid internet portalı vasitəsilə satınalan təşkilata təqdim edilməsi və satınalan təşkilat tərəfindən ödənişlə bağlı təsdiq bildirişinin təqdim olunması üçün portalda müvafiq imkanların yaradılması | 31.08.2023 | | |
| | | 3. Dövlət satınalmaları üzrə yeni qanunun tətbiqindən 6 ay sonra bu Yol Xəritəsinin 3.3.1-ci bölməsinin 1-ci bəndində qeyd olunan məlumatların müqayisəli şəkildə hazırlanaraq Komissiyaya təqdim edilməsi | Müəyyən olunmuş dövrdən sonrakı 1 ay ərzində | | |

| 3.4. Bazarın dinamikası və rəqabət davranışları | | | | | |
|---|---|---|---|---|---|
| 3.4.1. | Bazarların müəyyən xüsusiyyətləri (məsələn, bazardan çıxış dərəcələri) | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) “Bazarlarda rəqabətin ölçülməsi metodları”na (Methodologies to Measure Market Competition) dair müvafiq sənədində yer alan rəqabətin ölçülməsi metodlarından istifadə və “Rəqabətin Qiymətləndirilməsi üçün Alətlər Dəstinin” (Competition Assessment Toolkit) tətbiq edilməsi | Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi qəbul edildikdən sonra 6 ay ərzində | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Cəfər Babayev, Fuad Yadigarov |